**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN**

**ZAQATALA filialı**

**FAKÜLTƏ: İqtisadiyyat və menecment departamenti**

**BÖLMƏ: İqtisadiyyat və idarəetmə**

**İXTİSAS: Turizm işinin təşkili**

Müdafiəyə buraxılır:

«____» «_____» 2025-ci il

Bölmə rəhbəri: ______________________

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

# BURAXILIŞ İŞİ

**MÖVZU: "AZƏRBAYCANIN TURİZM SEKTORUNDA DÖVLƏT VƏ ÖZƏL SEKTORUN ƏMƏKDAŞLIĞI"**

**QRUP: TT1q-20**

**TƏLƏBƏ: Abdullayev Abdulrəhim**

**ELMİ RƏHBƏR: i.f.d dos. Sərdarov Elnur Zaur oğlu**

**ZAQATALA-2025**

# MÜNDƏRİCAT

**GİRİŞ** ........ 3

**I Fəsil: Azərbaycanın turizm potensialı və sektorun ümumi icmalı** ........ 5

1.1 Azərbaycanın turizm potensialı: Coğrafi və təbii resurslar Tarixi və mədəni irs. ........ 5

1.2 Turizm özəl və dövlət sektorunun inkişaf dinamikası və statistik göstəricilər ........ 11

**II Fəsil: Dövlət-özəl sektor əməkdaşlığının cari vəziyyəti və beynəlxalq təcrübə** ........ 15

2.1 Turizm sahəsində DÖSE modelləri: Birgə investisiyalar. ........ 15

2.2 Dövlət-özəl tərəfdaşlığının indiki vəziyyətinin təhlili: Mövcud layihələr və proqramlar ........ 22

**III Fəsil: Azərbaycanda dövlət və özəl sektorun turizm sahəsində əməkdaşlığının gələcək imkanları** ........ 35

3.1 Dövlət-özəl əməkdaşlığında olan çətinliklər: Maliyyə mənbələrinin məhdudluğu ........ 35

3.2 Regional inkişaf və dövlət-özəl tərəfdaşlığı: Regionlarda turizm sahəsinin mikro və kiçik bizneslərin inkişafı üçün dəstək ........ 36

3.3 Turizm sektorunda dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi üçün təkliflər ........ 37

**Nəticə** ........ 45

**Ədəbiyyat siyahısı** ........ 47

# GİRİŞ

Müasir dövrdə qeyri-neft sektorunun inkişafı, xüsusilə turizm sənayesinin gücləndirilməsi Azərbaycanın iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu sənayenin çoxşaxəli inkişaf potensialı ölkədə sosial-iqtisadi sabitliyin möhkəmləndirilməsinə və regionların davamlı inkişafına mühüm töhfə verir. Turizm sektoru təkcə iqtisadi artımın sürücüsü deyil, həm də yeni iş yerlərinin yaradılmasında, infrastrukturun yaxşılaşdırılmasında və ölkənin beynəlxalq arenada tanıdılmasında mühüm rol oynayır.

**Tədqiqatın mövzusunun aktuallığı** Azərbaycanda turizm sahəsində dövlət və özəl sektorlar arasında əməkdaşlığın təşkili və inkişaf dinamikasıdır. Obyekt bu əməkdaşlıq modelinin institusional əsasları, mövcud mexanizmləri, həyata keçirilən siyasətlər və onların nəticələridir.

Bu işin nəzəri əsasını dövlət-özəl tərəfdaşlıq (DÖSE) və turizm iqtisadiyyatı, müasir inkişaf modelləri, eləcə də beynəlxalq təcrübə sahəsində aparılan elmi tədqiqatlar təşkil edir. İstifadə olunan əsas metodoloji yanaşmalar sistem təhlili, müqayisəli yanaşma, statistik məlumatların işlənməsi, həmçinin induktiv və deduktiv təhlil üsullarıdır.

**İnformasiya bazası** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi göstəricilərindən, Dövlət Turizm Agentliyinin hesabatlarından, beynəlxalq təşkilatların (BMT Ümumdünya Turizm Təşkilatı - UNWTO və s.) analitik materiallarından, habelə mövzu ilə bağlı aparılan elmi tədqiqatlardan və normativ sənədlərdən ibarətdir.

**Araşdırmanın əsas məqsədi** turizm sahəsində dövlət və özəl sektorlar arasında əməkdaşlığın mövcud vəziyyətini qiymətləndirmək, bu sahədə mövcud problemləri müəyyən etmək, gələcək inkişaf imkanlarını təhlil etmək və səmərəli əməkdaşlıq üçün təkliflər irəli sürməkdən ibarətdir. Mövzu turizm şirkətləri, travellər, turizm agentləri və turoperatorlarda sorğu keçirilərək araşdırılıb.

Buraxılış işi üç əsas fəsildən, həmçinin giriş və nəticədən ibarətdir. Birinci fəsildə Azərbaycanın turizm potensialı və sektorun inkişafının ümumi tendensiyaları, eləcə də coğrafi və mədəni resursların rolu təhlil edilir. İkinci fəsildə turizmdə dövlət-özəl tərəfdaşlığın mövcud vəziyyəti, bu sahədə mövcud layihələr və beynəlxalq təcrübə araşdırılır. Üçüncü fəsildə gələcək əməkdaşlıq imkanları, qarşıda duran vəzifələr və onların həlli ilə bağlı təkliflər ətraflı şəkildə təqdim olunur.

Bu istiqamətdə aparılan tədqiqatlar həm nəzəri, həm də praktiki baxımdan böyük əhəmiyyət kəsb edir və ölkənin turizm siyasətinin daha davamlı və səmərəli inkişafına təkan vermək məqsədi daşıyır.İşin sonunda əsas nəticələr və müvafiq inkişaf istiqamətləri üzrə tövsiyələr təqdim edilir.

## I Fəsil: Azərbaycanın turizm potensialı və sektorun ümumi icmalı

1.1 Azərbaycanın turizm potensialı: Coğrafi və təbii resurslar Tarixi və mədəni irs.

Azərbaycan Respublikasının zəngin təbii imkanları və iqlim şəraiti turizmin inkişafı üçün əlverişli zəmin yaradır.Yer kürəsində mövcud olan 11 iqlim qurşağından 9-u müşahidə olunması, həmçinin əlverişli iqlim komfortluluq həddi, Respublikamızın gözəl təbii potensialına malik olmasının əsas göstəricilərdən biridir. Burada quru səhraların iqlimindən dağ tundralarının iqliminə qədər iqlim tipləri və iqlim komfort göstəriciləri var. Bu geniş potensialdan istifadə edərək, turizmdən ümumi daxili məhsulun ancaq 10 %-ni əldə etməyə malikik. Turizm Azərbaycan əhalisi arasında ən aktual, ən geniş yayılmış və, həmçinin, kütləvi aktiv istirahət növlərindən biri sayılır. O cümlədən, turizm Respublikamızın aktual inkişaf etmiş qeyri-neft sektorlarından sayılır. İlk səyahətlər ticarət, ziyarət, dini, siyasi və ya tanışlıq məqsədi ilə təşkil olunub. Qədim ərazimizdən keçən ticarət karvanlarını ilk səyyarlar hesab etmək olar. Qədim dövrün yazıçılarına görə, Azərbaycan Böyük İpək Yolunda yerləşən, beynəlxalq ticarət mərkəzi idi. Bakı xüsusilə vurğulanırdı. Şərq və şimal ölkələrinin tranziti hesab olunan , və, həmçinin, dəniz və quru yollarının kəsişməsində yerləşən Bakı bazarları ilə məşhur idi. Ağ dənizdən başlayaraq Volqa, Xəzər dənizi, İran vasitəsilə Hindistana gedən ticarət yolu məşhur idi. Bu yol üzərində möhtəşəm karvansaraylar tikilmişdir. Müxtəlif tarixi dövrlərin səyahətçiləri, diplomatları, tacirləri olan Marko Polo, Rui Qonzalez, Afanasi Nikitin, İosafat Barbaro, Ambrokko Kontarini, Antoni Cenkinson, Vinçenso Aleksandri, Sadko, Övliya Çələbi, Fyodor Kotov və s. Azərbaycanda olarkən xalqımızın ticarət, mədəni və diplomatik əlaqələrin inkişafında fəal iştirak etdiyini demişdirlər. 1908-ci ildən etibarən Bakıda Krım-Kafkaz Dağçılıq Klubunun Azərbaycandakı filialı açılmışdır. Filial ekskursiya səfərlərinin, lagerlərinin təşkili və keçirilməsi ilə məşğul olurdu. XX əsrin əvvəllərindən bəri Coğrafi cəmiyyətlər və, həmçinin, elmi cəmiyyətlər turizmin inkişafına diqqət yetirməyə başladı. 1929-cu ildə SSRİ-də "Proletar" Turizm Cəmiyyəti yaradıldı. Bu cəmiyyət turizmin sürətlə inkişaf etməsinə töhvə verdi. Bakı şəhərində və böyük şəhərlərdə şöbələr və ekskursiya

büroları yaradıldı. Onların əsas məqsədlərindən biri turizm marşrutlarının yaradılması və təşkili, diyarşünaslıq və tarixi turizmin inkişafı olmuşdur. Sovet dövründə 1987-ci ildə Azərbaycana gələn turistlərin sayı ən yüksək həddəm çatmışdı. Bu göstəricilər: 50 min nəfər xarici ölkələrdən və 250 min nəfər SSRİ-nin müxtəlif bölgələrindən gələn turistlər təşkil edirdi. Azərbaycanın Xəzər sahilində kurort və rekreasiya zonasının formalaşdırılması barədə qərar qəbul olundu. 1988-ci ildən başlayaraq Ermənistanın Qarabağ işğalı səbəbindən Azərbaycanda turist axını kəskin şəkildə azaldı. Azərbaycan əsas fövqəladə vəziyyət problemləri ilə məşğul idi. Turizm təşkilatlarının fəaliyyəti dayandırıldı və marşrutlar bağlandı.

XXI əsrin əvvəllərindən Bakıda, Gəncədə, Naxçıvanda və digər böyük şəhərlərdə beynəlxalq standartlara uyğun müasir avadanlıqlarla təchiz olunmuş böyük otellər tikilmişdir. Hazırda Respublikamızda 245 turizm şirkəti və 514 otel fəaliyyət göstərir. Kurort və sanatoriya zonalarında müasir səviyyəli sağlamlıq mərkəzləri və turizm bazaları yerləşir. Həmçinin resort otellərdə ayrıca SPA xidməti də fəaliyyət göstərməyə başladı. Azərbaycanda turizmin davamlı inkişafı üçün qış turizmi bazasının yaradılmasına önəm verildi. Bu məqsədlə, hal-hazırda "Şahdağ" və "Tufan" qış-yay turizm-istirahət kompleksləri fəaliyyət göstərir. Dövlət Turizm Agentliyinin məlumatına görə, 2019-cu ildə Azərbaycana gələn xarici turistlərin sayı 3,17 milyon nəfər təşkil etmişdir. (Dövlət turizm xidməti, 2021), (Dövlət Statistika komitəsi, 2023) Son illərdə turizmin inkişafı üzrə görülən işlər Azərbaycanın beynəlxalq turizm bazarına inteqrasiyasını daha da gücləndirmişdir. Azərbaycan, zəngin mədəniyyəti, təbii gözəllikləri və tarixi abidələri ilə tanınan bir turizm məkanıdır. Ölkə, həmçinin Asiya ilə Avropa arasında birləşdirici rolu turistlər üçün müxtəlif təcrübələr təklif edir. Azərbaycanın turizm potensialını aşağıdakı əsas sahələr üzrə təhlil edə bilərik. Təbii biomüxtəliflik və Ekoturizmi bu sırada əsas yerlərdən birini tutur. Biz bilirik ki, Azərbaycan, müxtəlif iqlim növləri və landşaft şəraiti ilə zəngin bir ölkədir. Xüsusilə dağlar, çaylar, göllər bə digər potensiallı təbii abidələr və milli parklar ekoturizmin inkişafı üçün əlverişlidir. Quba və Qusar rayonları ölkəmizin şimalında yerləşən rayonlarımıdır. Gözəl dağlıq

mənzərələri və dağlıq relyefi ilə məşhurdur. Şahdağ Milli Parkı dağ turizmi və yürüşlər üçün ideal məkanlardan biridir. Qobustan Milli Parkı qaya rəsmləri və tarixi abidələri ilə tanınır və UNESCO-nun Dünya Mədəniyyət İrsində daxildir. Həmçinin Qızıl Ağac Milli Parkı da məşhurdur. Lənkəran-Astara bölgəsində yerləşən bu park, nadir bitki və heyvan növlərinin qorunması məqsədilə yaradılmışdır. Müalicəvi suyu ilə məşhur olan bir kurort Naftalan kurortu sayılır. Azərbaycanın zəngin tarixi və mədəniyyəti turistlər üçün cazibədar amillərdən biridir. Bu sahədəki əhəmiyyətli yerlər növbətilərdir. Bakı şəhəri, həm müasir memarlığı (Alov Gülləıəri, Heydər Əliyev Mərkəzi) həm də tarixi abidələri ilə məşhurdur. İçəri Şəhər, Qız Qalası, Şirvanşahlar sarayı BMT UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmişdir. Şəki şəhəri tarixi memarlıq nümunələri və gözəl şəbəkə texnikası ilə dizayn edilən Şəki Xan Sarayı və Karvansarayı ilə diqqət çəkir. Quba rayonunda Quba xanlığı dövründən qalan çox sayda tarixi abidə və məscid mövcuddur. O cümlədən Azərbaycan mətbəxi, zəngin və çoxşaxəlidir. Azərbaycanın hər bir bölgəsi özünə məxsus ləzzətli mətbəxi ilə seçilir. Məsələn Kabab və plov Azərbaycan mətbəxinin ana yeməkləridir. Plovlar fərqlidir. Lakin Şah plovu xüsusidir və Azərbaycanın simvolunu təmsil edən plovlardan biri kimi yer alır. Düşbərə və kükü həmçinin ənənəvi yeməklər arasında yer alır. Azərbaycan əhalisinin şərabçılıq ilə məşğulu və istehsalı çox qədim tarixə malikdir. Xüsusilə Kəpəz və Qarabağ bölgələrində şərab turizmi inkişaf etmişdir. Həmçinin Gəncə, Ağsu, Şamaxı da şərabçılıqla məşhur olar bölgələrimizdəndir. Azərbaycan, xüsusilə müalicəvi su və termal mənbələr ilə məşhurdur. Müalicə və sağlamlıq turizmi üzrə ən məşhuru Naftalan sanatoriyasıdır. Naftalan müalicəvi termal suyu ilə ölkədəki ən məşhur sağlamlıq turizmi məkanlarından biridir. Bakı otellərində və bəzi rayonlarımızda yerləşən lüks otellərində əsasən müxtəlif SPA və bərpa mərkəzləri təklif edir. Azərbaycanın Xəzər dənizi sahilində çoxsaylı kurortlar və çimərliklər mövcuddur. Bakı şəhər sahilindəki bulvar ərazisi, həmçinin dəniz kənarında yerləşən restoranlar və istirahət mərkəzləri ilə məşhurdur. Mingəçevir şəhəri öz Kür çay sahili ilə və dadlı balıqları ilə məşhurdur. Həmçinin ən böyük hidroenerji potensialına malikdir və Azərbaycanın ən böyük su anbarı, Mingəçevir su anbarı burada yerləşir. Həmçinin

su anbarı ətrafında öz 7 limanları ilə və onlara məxsus çimərlik zonaları ilə məşhurdur. Qış Turizmi. Azərbaycanın dağlıq əraziləri, qış turizmi üçün əlverişli şərait yaradır: Şahdağ qış turizm mərkəzi Qusar rayonunda yerləşir və xizək sürmə, qar idmanı və dağ yürüşləri üçün ideal bir məkandır. Tufandağ Qəbələ şəhərində yerləşir, həmçinin populyar bir qış turizmi nöqtəsidir. Quba və Qusar. Bu ərazilər dağlıq təbiəti ilə həm qış, həm də yay turizmi üçün əlverişlidir. Bununla yanaşı Kəlbəcərdə bir çox turizm potensialı mövcuddur: müalicəvi mineral və termal sular (İstisu).

**Cədvəl 1.1 Şahdağ və Tufandağ turizm komplekslərinin müqayisəli təhlili**

| **Göstərici** | **Şahdağ Turizm Kompleksi** | **Tufandağ Turizm Kompleksi** |
|---|---|---|
| **Yerləşmə** | Qusar rayonu, Şahdağ Milli Parkı yaxınlığı | Qəbələ rayonu, Böyük Qafqaz sıra dağları ətrafı |
| **İstifadəyə verilmə ili** | 2012 | 2014 |
| **Əsas məqsəd** | Dörd mövsüm turizmin inkişafı, qış turizmi mərkəzi | Dağ-xizək turizmi və yay istirahəti üçün rekreasiya zonası |
| **Xidmət sahələri** | Xizək məktəbi, mehmanxanalar, restoranlar, SPA, velosiped yolu | Xizək məktəbi, otellər, kanatlar, ATV, yay fəaliyyəti |
| **Xizək traslarının sayı** | 14 | 15 |
| **Ümumi uzunluğu (km)** | 17 km | 17 km |
| **Kanat yolları** | 11 ədəd | 4 ədəd |
| **İnfrastruktur (otel və s.)** | Pik Palace, Zirve Hotel, Park Chalet, hostellər | Tufandag Hotel, Qəbələ Resort, yerli istirahət mərkəzləri |
| **İnvestisiya həcmi (təxmini)** | 200 milyon ABŞ dolları (dövlət və özəl) | 100 milyon ABŞ dolları (özəl sektor üstünlük təşkil edir) |
| **Fəaliyyət mövsümü** | Dörd mövsüm – qış və yay turizmi | Əsasən qış fəallığı, yayda da aktivdir |
| **Təhlükəsizlik və standartlar** | Beynəlxalq təhlükəsizlik və xidmət standartlarına uyğundur | Yüksək səviyyəli təhlükəsizlik və avadanlıq standartları |

| Göstərici | Şahdağ Turizm Kompleksi | Tufandağ Turizm Kompleksi |
|---|---|---|
| **Turist cəlbediciliyi** | Xarici və yerli turistlər üçün yüksək səviyyəli mərkəz | Yerli və regional turistlər üçün əlverişli |
| **İnkişaf tendensiyası** | Dövlət dəstəyi ilə davamlı inkişaf və genişlənmə | Özəl sektorun təşəbbüsü ilə mərhələli inkişaf |

Mənbə: Dövlət Turizm Agentliyi. (2023). Qusar Rayon İcra Hakimiyyəti. (2023). Qəbələ Rayon İcra Hakimiyyəti. (2023). Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2023).

## Dini Turizm

Azərbaycan multikultural və tolerant bir ölkədir. Olkəmiz müxtəlif dinlərin və mədəniyyətlərin birləşdiyi bir yerdir, bu da dini turizm üçün xüsusi bir cazibə yaradır: **Quba** dünyada ən böyük yəhudi məzarlığına sahibdir. **Şəki** şəhəri tarixi məscid və dini komplekslərə ev sahibliyi edir. **Quba** və **Gəncə** rayonları islam mədəniyyətinin mühüm abidələrinə ev sahibliyi edir.

**Fəaliyyət və Macəra Turizmi**. Azərbaycan, müxtəlif macəra turizmi fəaliyyətləri üçün mükəmməl bir yerdir. Azərbaycanın dağlıq əraziləri, dağçılıq və yürüş üçün əlverişlidir.

**Azərbaycanın Tarixi və Mədəni İrsi.** Azərbaycan çox qədim tarixə malikdir və Qafqaz regionunun ən vacib mərkəzlərindən biri kimi tanınır. Azərbaycan ərazisi hələ Neolit dövründən insan məskəni olmuşdur. Qarabağdakı Azıx mağarası Avropa və Asiyanın qədim insan məskənlərindən biri hesab edilir. Eramızdan əvvəl VI-IV əsrlərdə Azərbaycan Midiya imperiyasının bir hissəsi idi. Daha sonra Atropatena dövlətinin yaranması bu ərazinin "Azərbaycan" adını almasına səbəb olmuşdur. Eramızdan əvvəl IV əsrdə Qafqaz Albaniyası müsəlmanlıqdan əvvəlki Azərbaycanın ən mühüm siyasi və dini qurumlarından biri idi. **Mədəni İrsi.** Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan Respublikasında qədimi turizm abidələrdən başqa müasır memarlıq abidələr və simvollar da yer alır. Onlar Heydər

Əliyev Mərkəzi, Alov Gülləri və s. kimidir. Azərbaycan zəngin mədəni irsə malikdir və bu irs xalqının tarixi boyu inkişaf etməmişdir.

Azərbaycanın tarixi memarlıq nümunələri dünya mədəniyyəti üçün qiymətsiz irsdir. Məsələn:

**Cədvəl 1.2 Azərbaycanda qədimi və müasir memarlıq abidələri müqayisəli cədvəl**

| Qədim memarlıq abidələri | Müasir memarlıq abidələri |
|---|---|
| **Qız qalası (XII əsr, Bakı)** | Heydər Əliyev Mərkəzi |
| **Şirvanşahlar sarayı (XV əsr, Bakı)** | Alov Gülləri |
| **Xudafərin körpüləri (XII-XIII əsrlər)** | **Bakı Kristal Zalı** (Baku Crystal Hall) |
| **İçəri Şəhər (V əsr)** | ASAN Xidmət Mərkəzləri |
| **Şuşa qalaları (XVIII əsr)** | **Bakı Olimpiya Stadionu** |
| **Şəki xan sarayı (Şəki) (XVIII əsr)** | SOCAR Tower |
| **Karvansaray (Şəki) (XVIII-XIX əsr)** | Bakı Ağ Şəhər Layihəsi |

Mənbə: Abdullayev, F. (2015). *Azərbaycan memarlığı tarixi*. Bakı: Elm nəşriyyatı.

Abdullayeva, T, Azərbaycan Mədəniyyət Nazirliyi, 2022; UNESCO və abidələrin öz rəsmi səhifələrdən məlumat araşdırılaraq müəllif tərəfindən hazırlanıb

- Qız qalası (XII əsr, Bakı)
- Şirvanşahlar sarayı (XV əsr, Bakı)
- Xudafərin körpüləri (XII-XIII əsrlər)
- İçəri Şəhər
- Şuşa qalaları
- Şəki xan sarayı (Şəki)
- Karvansaray (Şəki)

Azərbaycanın musiqisi, ədəbiyyatı, mədəniyyəti, incəsənəti də çox zəngindir. Azərbaycan muğamı YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Aşıq sənəti və musiqi aləti tar da ölkə mədəniyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Nizami Gəncəvi, Fəzuli kimi şairlər Azərbaycan ədəbiyyatına şöhrət gətirmişlər. Ölkəmizin milli geyimləri, əl işləri də çox gözəl və rəngarəngdir. Qarabağ xalçaları, Göytəpə köynəkləri və digər milli geyimlər əsrlər boyu qorunub saxlanılmışdır. Azərbaycanın bir sıra tarix və mədəniyyət abidələri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib: Görəməz dağı, Qobustan qayaüstü rəsmləri, İçərişəhər, Qız Qalası, Şirvanşahlar Sarayı kompleksi. Azərbaycanın tarixi-mədəni irsi xalqın dünya mədəniyyətinə verdiyi böyük töhfələrdən xəbər verir. Beləliklə, belə nəticəyə gəlmək olar ki, respublikamız çox zəngin və müxtəlif resurs potensialına malikdir: istər təbii, istər tarixi, istərsə də mədəni resurs potensialı.

## 1.2 Turizm özəl və dövlət sektorunun inkişaf dinamikası və statistik göstəricilər

Son illərdə Azərbaycanda turizm sektoru həm dövlət, həm də özəl sektorun təşəbbüsləri nəticəsində mühüm inkişaf mərhələsinə qədəm qoymuşdur. 2003-cü ildə turizm və ictimai iaşə xidmətləri sahəsində yaradılmış əlavə dəyər cəmi 35 milyon manat təşkil etdiyi halda, 2023-cü ildə bu göstərici 2 milyard 684 milyon

manata çatmışdır. Bu, son 20 ildə təxminən 76,6 dəfəlik artım deməkdir ki, bu da sektorun iqtisadiyyatdakı rolunun əhəmiyyətli dərəcədə artdığını nümayiş etdirir (Dövlət Statistika Komitəsi, 2023). Eyni zamanda, 2023-cü ilin ilk yarısında ölkədə turizm xidmətlərinin dövriyyəsi 1,1 milyard ABŞ dolları səviyyəsində qeydə alınmışdır. Bu rəqəm, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 45,7 faiz artımı ifadə edir. Bu dinamika, ölkəyə gələn turist axınının və daxili turizm fəaliyyətlərinin genişlənməsinin göstəricisi kimi çıxış edir (Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, 2023). Azərbaycan hökumətinin bu sahəyə yönəldiyi strateji diqqət, həm də özəl sektorun cəlb olunması ilə müşayiət olunur. Dövlət-özəl sektor əməkdaşlığı (DÖSE) çərçivəsində, xüsusilə infrastruktur layihələrində və regional turizmin inkişafında birgə investisiya layihələri həyata keçirilir (World Bank, 2022). Bu nailiyyətlər turizm strategiyasının düzgün qurulduğunu və dövlət-özəl sektor sinerjisinin sektorun inkişafında əhəmiyyətli rol oynadığını sübut edir. Dövlət tərəfindən təqdim olunan vergi güzəştləri, investisiya təşviqləri və regionlarda yaradılan turizm klasterləri bu sahədə əməkdaşlıq imkanlarını daha da artırır (OECD, 2021).

Turizm sektorunun inkişafı hər bir ölkənin iqtisadi artım, məşğulluq və sosial rifah sahəsində dayanıqlı inkişafına mühüm töhfə verir. Azərbaycanda bu sahənin formalaşması və inkişafında həm dövlət, həm də özəl sektorun rolu əhəmiyyətlidir. Dövlət əsasən normativ-hüquqi bazanın yaradılması, infrastrukturun inkişafı və təşviq mexanizmlərinin formalaşdırılması ilə məşğul olduğu halda, özəl sektor turizm xidmətlərinin təşkili, turistlər üçün şəraitin yaradılması və bazar iştirakçısı kimi çıxış edir.

### Dövlət sektorunun rolu və inkişaf istiqamətləri

Azərbaycanda turizm sektorunun inkişafı üzrə dövlət siyasətinin əsas istiqamətləri 2016-cı ildə təsdiqlənmiş “Azərbaycan Respublikasında turizmin inkişafına dair Strateji Yol Xəritəsi” ilə müəyyən olunmuşdur. Bu sənəddə daxili turizmin inkişafı, turizm məhsullarının şaxələndirilməsi, brendinq, insan kapitalının

artırılması və dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi kimi prioritetlər vurğulanır (Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, 2016).

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun fəaliyyətə başlaması, beynəlxalq sərgilərdə iştirakı və turizm istiqamətlərinin reklam olunması sahənin institusional inkişafını təmin etmişdir. Dövlət həmçinin infrastruktur (hava limanları, avtomobil yolları, dəmir yolu xətləri, turizm məkanlarının abadlaşdırılması) sahəsinə böyük sərmayələr yatırmışdır.

**Özəl sektorun inkişaf dinamikası**

Özəl sektor turizm sənayesində hotellərin, turizm agentliklərinin, restoran və əyləncə müəssisələrinin fəaliyyətini təşkil edən əsas iştirakçıdır. 2010-cu ildən sonra ölkədə turizm şirkətlərinin və mehmanxanaların sayında artım müşahidə olunur. Bununla yanaşı, "mehmanxana və mehmanxana tipli obyektlərin təsnifatı" sisteminin tətbiqi, xidmət keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərmişdir.

Əlavə olaraq, özəl sektorun iştirakı ilə yeni turizm marşrutları yaradılmış, kənd və ekoturizm, sağlamlıq turizmi və dağ turizmi istiqamətində alternativ təkliflər formalaşdırılmışdır. Pandemiyadan sonrakı dövrdə daxili turizmin inkişafı üçün yerli sahibkarların təşəbbüsləri xüsusi aktuallıq kəsb etmişdir.

**Statistik göstəricilər (2015–2023)**

Turist axını: Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cu ildə Azərbaycana səfər edən xarici vətəndaşların sayı 3,2 milyon nəfər təşkil edib. Pandemiya illərində (2020-2021) bu rəqəm kəskin şəkildə azalsa da, 2023-cü ildə ölkəyə təxminən 2,1 milyon xarici turist gəlib (Dövlət Statistika Komitəsi, 2024).

Mehmanxanalar və turizm obyektləri: 2023-cü ildə ölkədə 630-dan çox mehmanxana və qonaq evi fəaliyyət göstərib ki, onların da 80%-i özəl mülkiyyətdədir.

Sektorun ÜDM-də payı: 2023-cü ildə turizm sektorunun qeyri-neft ÜDM-də payı təxminən 3,5% təşkil etmişdir. 2030-cu ilə qədər bu rəqəmin 6%-ə çatdırılması planlaşdırılır.

Məşğulluq: 2023-cü ilə qədər turizm sektoru birbaşa və dolayı yolla 150.000 nəfərə yaxın insanı işlə təmin edib ki, bu da onu qeyri-neft sektorunda mühüm məşğulluq mənbələrindən birinə çevirir.

Cari məsələlər və perspektivlər

İnkişaf dinamikasına baxmayaraq, sektor hələ də bir sıra problemlərlə üzləşir. Xidmətlərin keyfiyyətindəki fərqlər, regionlarda turizm infrastrukturunun inkişaf etməməsi, bəzi marşrutlarda rəqabət qabiliyyətinin aşağı olması, bəzən mürəkkəb tənzimləmə mexanizmləri sektorun dayanıqlığını zəiflədir. Bununla belə, bu çətinliklər DÖSE mexanizmləri, rəqəmsallaşma, brend strategiyası və insan resurslarının inkişafı ilə aradan qaldırıla bilər.

## II Fəsil: Dövlət-özəl sektor əməkdaşlığının cari vəziyyəti və beynəlxalq təcrübə

### 2.1 Turizm sahəsində DÖSE modelləri: Birgə investisiyalar.

Turizm sektorunun inkişafında dövlət-özəl sektor əməkdaşlığı (DÖSE) mühüm rol oynayır. Bu əməkdaşlığın formalarından biri birgə investisiya layihələridir. DÖSE modeli çərçivəsində birgə investisiyalar, həm dövlətin, həm də özəl sektorun maliyyə və idarəetmə resurslarını səfərbər etməklə turizm infrastrukturunun genişləndirilməsi və xidmət keyfiyyətinin artırılmasını hədəfləyir. Belə layihələr xüsusilə mehmanxanalar, kurort zonaları, nəqliyyat və kommunikasiya infrastrukturu, eləcə də turizm marşrutlarının yaradılması sahəsində tətbiq edilir.

Bu modelin əsas üstünlüklərindən biri risklərin bölüşdürülməsi və daha effektiv maliyyələşmə imkanlarının yaradılmasıdır. Dövlət bu əməkdaşlıqda torpaq sahələri, vergi güzəştləri, hüquqi dəstək və strateji planlaşdırma kimi vasitələrlə iştirak edə bilər. Özəl sektor isə texniki bilik, idarəetmə təcrübəsi və kapital ilə layihələrə töhfə verir. Nəticədə tərəflər arasında sinerji yaranır və bu da uzunmüddətli dayanıqlı inkişafı təmin edir (UNWTO, 2015).

Birgə investisiyalar vasitəsilə həyata keçirilən layihələr, xüsusən inkişaf etməkdə olan ölkələrdə turizm sənayesinin canlanmasına səbəb olur. Azərbaycanda da bu modelə əsaslanan layihələr, məsələn, Naftalan kurort zonası və Qalaaltı sanatoriyası kimi investisiya layihələri, dövlət və özəl sektorun əməkdaşlığının uğurlu nümunələridir (Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, 2020).

Lakin bu modelin tətbiqində şəffaflıq, hüquqi tənzimləmələr və uzunmüddətli strateji planlaşdırma vacibdir. Əks halda, tərəflər arasında ziddiyyətlər, layihələrin dayandırılması və ya resursların səmərəsiz istifadəsi mümkündür (World Bank, 2017).

Xarici dövlətlərin turizm sahəsində əsas fəaliyyət istiqamətləri Ölkə Turizm sahəsində idarəetmənin milli strukturu Dövlətin əsas fəaliyyət istiqamətləri Fransa İqtisadiyyat, Sənaye və Rəqəmsal Texnologiyalar Nazirliyi 1. Sosial turizmin təşviqi. 2. Ətraf mühitin mühafizəsi. Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi 1. Turizm sektoruna dövlət səviyyəsində dəstək. 2. Güzəştli vergilər, kreditlər və gömrük rüsumları, investisiyalar və subsidiyalar hesabına maddi-texniki bazanın möhkəmləndirilməsi. 3. Gəlmə turizminin həvəsləndirilməsi. 4. Viza rəsmiləşdirilməsinin sadələşdirilməsi. İtaliyanın Sənaye, Sənətkarlıq və Ticarət Nazirliyi. 1. Normativ-hüquqi tənzimləmə. 2. Lisenziyalaşdırma. 3. Regional turizm təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi. 4. Statistik fəaliyyət. 5. Beynəlxalq əməkdaşlıq. İspaniya İqtisadiyyat Nazirliyi. 1. Ətraf mühitin mühafizəsi. 2. Normativ və hüquqi tənzimləmə. 3. Lisenziyalaşdırma, sertifikatlaşdırma. 4Regional turizm təşkilatlarının koordinasiyası. Yunanıstanın İnkişaf, Ticarət və Sənaye Nazirliyi 1. Güzəştli vergilər və subsidiyalar hesabına maddi-texniki bazanın möhkəmləndirilməsi. 2. Gəlmə turizminin həvəsləndirilməsi. 3. Lisenziyalaşdırma. (M.V.Efremova, İ.P.Smirnova - "Turizm sahəsində dövlət idarəetmə mexanizmlərinin xarici təcrübəsinin təhlili" - 2003).

**Cədvəl 2.1 Turizm sferasında xarici dövlətlərin fəaliyyətinin əsas istiqamətləri**

| Ölkə | Turizm sahəsində milli idarəetmə strukturu | Dövlət fəaliyyətinin əsas istiqamətləri |
|---|---|---|
| Fransa | İqtisadiyyat, sənaye və rəqəmsal texnologiyalar nazirliyi | 1. Sosial turizmin həvəsləndirilməsi.<br>2. Ətraf mühitin qorunması. |
| Türkiyə | Mədəniyyət və turizm nazirliyi | 1. Dövlət səviyyəsində turizim sektorunun dəstəklənməsi.<br>2. Güzəştli vergi, kredit və gömrük rüsumları, investisiyalar və subsidiyalar hesabına maddi-texniki bazanın gücləndirilməsi.<br>3. Giriş turizminin həvəsləndirilməsi.<br>4.Viza rəsmiləşdirilmələrinin sadələşdirilməsi. |
| İtaliya | Sənaye, sənətkarlıq və ticarət nazirliyi. | 1. Normativ-hüquqi tənzimləmə.<br>2. Lisenziyalaşdırma.<br>3.Regional turist təşkilatlarının əlaqələndirilməsi.<br>4. Statistik fəaliyyət.<br>5. Beynəlxalq əməkdaşlıq. |
| İspaniya | İqtisadiyyat nazirliyi. | 1. Ətraf mühitin qorunması.<br>2. Normativ-hüquqi tənzimləmə.<br>3. Lisenziyalaşdırma, sertifikatlaşdırma.<br>4Regional turist təşkilatlarının əlaqələndirilməsi. |
| Yunanıstan | İnkişaf, ticarət və industriya nazirliyi | 1. Güzəştli vergi və subsidiyalar hesabına maddi-texniki bazanın gücləndirilməsi.<br>2. Giriş turizminin həvəsləndirilməsi.<br>3. Lisenziyalaşdırma. |

Mənbə: Elmi məqalə-M.V.Efremova, İ.P.Smirnova-"Turizm sferasında dövlət idarəetmə mexanizmlərinin xarici təcrübəsinin təhlili"-2003

## Turizm sahəsində dövlət-özəl sektor əməkdaşlığı (DÖSE) və birgə investisiyalar

Müasir dövrdə turizm sektorunun davamlı inkişafı məqsədilə dövlət və özəl sektor arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin qurulması mühüm əhəmiyyət kəsb edir. Bu çərçivədə dövlət-özəl sektor əməkdaşlığı (DÖSE) modelləri xüsusilə infrastrukturun inkişafı, xidmət sahələrinin genişləndirilməsi və investisiya mühitinin təkmilləşdirilməsi baxımından effektiv alət hesab olunur. DÖSE modelləri arasında birgə investisiyalar xüsusi yer tutur və turizm layihələrinin həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

"Turizm haqqında" Azərbaycan Respublikasının qanununda turizm belə tərif edilir: Turizm- Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və s.), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələridir (Azərbaycan Respublikası Turizm haqqında qanun, maddə 1, http://www.e-qanun.az/framework/4759, 15.10.2018). Həmçinin "Turizm haqqında qanun" dövlətin özəl turizm şirkətlərinə, turoperatorlara, turagentlərə, travel şirkətlərə dəstək, dövlət və özəl sektor əməkdaşlığı haqqında xüsusi ilə vurğulanır. Turizm haqqında Azərbaycan Respublikasının Qanununun 5.1.8 maddəsində turizm sahəsində dövlət-özəl sektor əməkdaşlığının dəstəklənməsi xüsusi ilə vurğulanır. https://e-qanun.az/framework/49162 (maddə 5.1.8.)

Agentlik öz fəaliyyətini müvafiq sahəyə aid dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanması, turizm infrastrukturunun və sənayesinin, habelə tabeliyində olan dövlət ehtiyatlarının inkişafına investisiyaların cəlb edilməsi üçün müvafiq tədbirlərin görülməsi, turizm zonalarının və turistlərə xidmət sahələrinin yaradılması, Azərbaycan Respublikasının Azərbaycan Respublikasının beynəlxalq

turizm mərkəzinə çevrilməsi, brendin formalaşması, beynəlxalq turizm mərkəzinə çevrilməsi məqsədilə müvafiq reklam işlərinin həyata keçirilməsi, turizm infrastrukturunun və sənayesinin inkişafı kimi prioritet istiqamətlər üzrə qurur. turizm sahəsində mövcud vəziyyəti, gələcək inkişaf istiqamətlərini, habelə perspektivlərini müəyyən etmək üçün elmi tədqiqat və sorğuların aparılması, Azərbaycan Respublikasının rayonları və ayrı-ayrı şəhərləri üzrə marketinq və kommunikasiya planlarının hazırlanması və həyata keçirilməsinin təmin edilməsi, turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə peşəkar kadrların hazırlanmasında iştirak, dövlət-özəl tərəfdaşlıq prinsipinə əsaslanan layihələrin həyata keçirilməsi, turizm sifarişinin artırılması ilə müvafiq turizm müəssisələrinin yaradılması ilə birgə keyfiyyətin təmin edilməsi; təmin edilməsi, tabeliyində olan dövlət qoruqlarının ərazilərində turizmin inkişafı, turizm marşrutlarının müəyyən edilməsi və müvafiq infrastrukturun yaradılması, idarə olunması və mühafizəsinin təşkili.

Dövlət Turizm Agentliyi fevralın 3-dən 2025- ci ildən etibarən turizm layihələrinin qrant maliyyələşdirilməsi üçün müsabiqə elan edib. Müsabiqənin məqsədi turizm infrastrukturunun inkişafı, turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, regional turizmin inkişafı, prioritet turizm bazarları üçün xüsusi turizm məhsullarının yaradılması, turizm sahəsində innovasiyaların və tədqiqatların stimullaşdırılması, turizm sahəsində maarifləndirmənin artırılmasıdır. Müsabiqənin şərtlərinə görə, təqdim olunan layihələrin icra müddəti səkkiz aydan, dəyəri isə əlli min manatdan çox olmamalıdır. Qrant müsabiqəsində bələdiyyələr, təhsil müəssisələri, qeyri-hökumət təşkilatları, təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş digər hüquqi şəxslər, habelə Azərbaycan Respublikasının vətəndaşı olan fiziki şəxslər iştirak etmək hüququna malikdirlər. Bu da turizm sektorunda DÖSE modelinə bir nümunədir. (Dövlət Turizm Agentliyi, 2025)

**Birgə investisiyaların mahiyyəti və üstünlükləri**

Birgə investisiyalar, dövlət və özəl sektorun müəyyən layihələr üzrə maliyyə, texniki və idarəetmə resurslarını birləşdirərək ortaq məqsədlərə xidmət edən əməkdaşlıq formasıdır. Bu model çərçivəsində dövlət layihənin hüquqi və normativ tənzimlənməsi, ilkin infrastruktur təminatı və güzəştli şərtlərlə torpaq sahələrinin ayrılması funksiyalarını yerinə yetirir. Özəl sektor isə maliyyə vəsaiti, texnoloji yeniliklər və idarəetmə bacarıqları ilə layihənin həyata keçirilməsinə töhfə verir (Akintoye, Beck & Hardcastle, 2003).

Birgə investisiya modelləri xüsusilə böyükhəcmli turizm obyektlərinin yaradılmasında – beynəlxalq mehmanxana şəbəkələri, sağlamlıq turizmi mərkəzləri, dağ-xizək və kurort komplekslərinin inşasında – tətbiq olunur. Bu modelin əsas üstünlükləri aşağıdakılardır:

- Risklərin dövlət və özəl sektor arasında bölüşdürülməsi;
- Layihənin maliyyə dayanıqlılığının təmin olunması;
- Dövlət büdcəsinə əlavə yükün azaldılması;
- İctimai maraqların qorunması və investor maraqlarının balanslaşdırılması (World Bank, 2017)

**Sxem 2.1 Birgə investisiyaların mahiyyəti və üstünlükləri**



Mənbə: Dünya Bankı 2017 məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

**Birgə investisiya layihələrinin əsas formaları**

Turizm sektorunda həyata keçirilən birgə investisiya layihələri aşağıdakı istiqamətləri əhatə edə bilər:

- **İnfrastrukturun yaradılması:** Aeroportlar, nəqliyyat yolları, dəmir yolları və rabitə şəbəkələrinin qurulması.
- **Mehmanxana və kurortların inşası:** Beynəlxalq otel brendlərinin ölkəyə cəlb olunması və müasir turizm komplekslərinin yaradılması.
- **Rekreasiya və ekoturizm obyektlərinin inkişafı:** Milli parkların turizm məqsədilə istifadəsi, ekoloji cəhətdən təmiz istirahət zonalarının formalaşdırılması.
- **Rəqəmsal turizm texnologiyalarının tətbiqi:** Elektron xidmətlər, "ağıllı turizm" həlləri və rəqəmsallaşdırma proseslərində əməkdaşlıq (OECD, 2020).

**Azərbaycan təcrübəsi: DÖSE və birgə investisiyaların tətbiqi**

Azərbaycan Respublikasında turizm sənayesinin inkişafı istiqamətində dövlət-özəl sektor əməkdaşlığına əsaslanan bir sıra layihələr uğurla reallaşdırılmışdır. Məsələn, Qalaaltı Sağlamlıq və İstirahət Kompleksi, Naftalan kurort zonası və Şahdağ Turizm Kompleksi kimi nümunələr dövlətin infrastruktur təminatı və normativ dəstək funksiyalarını yerinə yetirməsi ilə yanaşı, özəl investorların aktiv iştirakı ilə formalaşmışdır (Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, 2021).

Bu layihələr nəticəsində ölkənin turizm infrastrukturunda keyfiyyətli dəyişikliklər müşahidə edilmiş, həm daxili, həm də xarici turist axınının artmasına şərait yaranmışdır. Şahdağ layihəsində dövlət əsas infrastruktur komponentlərini təmin etmiş, özəl sektor isə mehmanxana, iaşə obyektləri və əyləncə xidmətlərini

təşkil etmişdir. Bu, DÖSE modelinin səmərəli tətbiqinə nümunə olaraq göstərilə bilər (UNWTO, 2015).

**Mövcud problemlər və perspektivlər**

Birgə investisiya modelinin uğurla tətbiqi bir sıra hüquqi, institusional və iqtisadi amillərlə birbaşa bağlıdır. Bu modelin effektiv fəaliyyəti üçün aşağıdakı şərtlərin təmin olunması zəruridir:

- Aydın və sabit hüquqi-normativ baza;
- Dövlət və özəl tərəfdaşlar arasında şəffaf razılaşmaların mövcudluğu;
- Risklərin və gəlirlərin ədalətli bölüşdürülməsi mexanizmləri;
- Uzunmüddətli strateji planlaşdırmanın həyata keçirilməsi.

**Sxem 2.2 Turizm sahəsində DÖSE modellərin və birgə investisiyaların mövcud problemləri və perspeltivlər**




Mənbə: UNWTO 2015 məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

Göstərilən şərtlər yerinə yetirildiyi təqdirdə, birgə investisiyalar əsasında həyata keçirilən turizm layihələri ölkənin iqtisadi inkişafına və beynəlxalq turizm bazarında mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verə bilər.

## 2.2 Dövlət-özəl tərəfdaşlığının indiki vəziyyətinin təhlili: Mövcud layihələr və proqramlar

Turizm sektorunda dövlət-özəl sektor əməkdaşlığı (DÖSE) inkişaf etməkdə olan ölkələr üçün mühüm mexanizmlərdən biri kimi çıxış edir. Bu model dövlətin tənzimləmə və dəstək imkanlarını, özəl sektorun isə maliyyə, idarəetmə və innovasiya potensialını birləşdirərək turizm infrastrukturunun və xidmətlərinin keyfiyyətini artırmağa imkan verir. Azərbaycanda da DÖSE modeli getdikcə daha geniş tətbiq olunur və bu çərçivədə bir sıra mühüm layihə və proqramlar həyata keçirilmişdir.

**Dövlət-özəl tərəfdaşlığının hüquqi və institusional bazası**

Azərbaycanda DÖSE-nin institusional əsasları "Dövlət-özəl tərəfdaşlığı haqqında" Qanunun qəbul olunması (2023) ilə daha da möhkəmləndirilmişdir. Bu qanun investorların hüquqlarının qorunması, tərəfdaşlıq müddətlərinin müəyyənləşdirilməsi, gəlirlərin bölüşdürülməsi və risklərin paylaşılması kimi məsələləri tənzimləyir. Bundan əlavə, **İqtisadiyyat Nazirliyi** və **Dövlət Turizm Agentliyi** bu əməkdaşlıqların təşkili və təşviqi üzrə əsas icraçı orqanlar kimi fəaliyyət göstərirlər (Azərbaycan Respublikası Milli Məclisi, 2023).

**Mövcud layihələr və əməkdaşlıq nümunələri**

**Şahdağ Turizm Kompleksi**

Şahdağ Kompleksi Azərbaycanda DÖSE modelinin tətbiqi baxımından önəmli layihələrdən biridir. Layihə dövlət tərəfindən infrastruktur və ərazi təminatı ilə dəstəklənmiş, otel, restoran və xidmət sahələri isə özəl investisiyalarla həyata keçirilmişdir. Bu model turizmin mövsümi və dağ turizmi potensialının realizəsinə

xidmət etmiş, regionun iqtisadi dirçəlişinə təkan vermişdir (Dövlət Turizm Agentliyi, 2023).

**Naftalan Sağlamlıq və Termal Turizm Klasteri**

Naftalan şəhərində aparılan termal turizm və sağlamlıq xidmətləri layihəsi dövlət və özəl sektorun birgə səyləri nəticəsində yenidən qurulmuşdur. Dövlət əsasən nəqliyyat və kommunal infrastrukturun inkişafını üzərinə götürmüş, özəl investorlar isə müalicəvi otellər və SPA kompleksləri inşa etmişdir. Hal-hazırda burada fəaliyyət göstərən 10-dan çox özəl müəssisə turizm xidmətləri göstərir.

**"Böyük Qayıdış" və Qarabağ regionunda turizm təşəbbüsləri**

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələr çərçivəsində Şuşa, Ağdam, Füzuli və digər rayonlarda turizm infrastrukturu yaradılır. Bu bölgələrdə dövlət tərəfindən infrastruktur təminatı (yollar, elektrik, su) həyata keçirilir, özəl investorlar isə otel, restoran və ekskursiya xidmətləri təklif edir. Məsələn, 2023-cü ildə Şuşada açılan **“Xarıbülbül” otel kompleksi** dövlət-özəl əməkdaşlığı çərçivəsində istifadəyə verilmişdir (Azərbaycan Turizm Bürosu, 2023).

**Proqramlar və təşəbbüslər. “Birgə Tərəfdaşlıq Platforması”**

Dövlət Turizm Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən 2021-ci ildən həyata keçirilən bu platforma dövlət və özəl sektor arasında məlumat mübadiləsini, birgə layihələrin planlaşdırılmasını və təşviq mexanizmlərinin qurulmasını nəzərdə tutur. Platforma çərçivəsində sahibkarlar üçün investisiya forumları, maliyyə imkanları və təlim proqramları təşkil olunur (KOBİA, 2022).

**“Turizm Biznesinə Startap Dəstəyi” proqramı**

Bu proqram yeni turizm təşəbbüslərinin maliyyələşdirilməsi və inkubasiya imkanlarının yaradılmasını hədəfləyir. Dövlət, texniki və inzibati dəstək

göstərməklə yanaşı, özəl sektoru güzəştli kredit və qrant mexanizmləri ilə dəstəkləyir. Proqramın nəticəsində 2021–2023-cü illər ərzində 50-dən çox yerli layihə maliyyə dəstəyi almışdır (İqtisadiyyat Nazirliyi, 2023).

**DÖSE-nin indiki vəziyyətinin ümumi təhlili**

Mövcud layihələr və proqramların təhlili göstərir ki, Azərbaycanda turizm sahəsində DÖSE modeli tədricən tətbiq olunur və uğurlu nəticələr verir. Xüsusilə infrastrukturun qurulması dövlətin üzərinə düşdüyü halda, xidmətlərin təşkili və kommersiya əməliyyatları özəl sektor tərəfindən həyata keçirilir. Lakin bu sahədə institusional koordinasiya, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, investorların maarifləndirilməsi və uzunmüddətli risklərin bölüşdürülməsi sahəsində hələ də müəyyən boşluqlar qalmaqdadır.

Turizm şırkətin DÖSE model tətbiqi və dövlət dəstəyinin müəyyənləşdirməsi və təhlil etməsi üçün verilən əsas suallar aşağıdakılardır:

1. Turizm şirkətinizin yaranma tarixi, necə yaradılıb?

2. Turizm şirkətinin dövlət və özəl sektor əməkdaşlığı, şirkətin yaradılmasında dövlət dəstəyi

3. Şirkət yaradılanda hansı pillələri keçib (şirkətin yaradılması stepsləri), hara müraciət edib və s

4. Turizm şirkətinin bronlaşdırma, proqramlaşdırılması haqqında məlumat, rəqəmsallaşdırılması haqqında məlumat

5. Turizm şirkətinizin daxili siyasəti, tur zərfin təşkili haqqında məlumat, xarici turlar haqqında məlumat, tariflər, kampaniyalar və güzəştli paketlərin təşkili haqqında məlumat.

Bu suallar müəllifə məxsusudur və bu suallar əsasında turizm şirkətləri ilə araşdırma aparılıb

**Sxem. 2.3 Turizm şırkətin DÖSE model tətbiqi və dövlət dəstəyinin müəyyənləşdirməsi və təhlil etməsi üçün verilən əsas suallar**




Bu suallar müəllifə məxsusudur və bu suallar əsasında turizm şirkətləri ilə araşdırma aparılıb

Azərbaycanda bir turizm şirkəti yaranandahansı pillələri keçməlidir?

1.Hüquqi şəxs kimi qeydiyyat Vergilər Nazirliyi və ya ASAN Xidmət vasitəsilə şirkət qeydiyyatdan keçirilir. Qeydiyyat üçün tələb olunan sənədlər: Təsisçi haqqında məlumat Şirkətin adı və hüquqi ünvanı Nizamnamə (əgər MMC-dirsə) Dövlət rüsumunun ödənildiyini təsdiq edən qəbz •MMC (Məhdud Məsuliyyətli Cəmiyyət) ən çox seçilən formadır. 2. VÖEN (vergi ödəyicisinin eyniləşdirmə nömrəsi) alınması Şirkət qeydiyyatdan keçdikdən sonra avtomatik olaraq VÖEN verilir. VÖEN bütün maliyyə əməliyyatlarında istifadə olunur. 3. Bank hesabının açılması Şirkətə aid rəsmi bank hesabı açılır. Ödənişlərin və əməliyyatların qanuni şəkildə aparılması üçün vacibdir. 4. Lisenziya və icazələr Turizm şirkəti açmaq üçün

